# Çıxış yolumuz yalnız vaksinasiyadır!

Son vaxtlar ölkəmizdə yeni növ koronavirus infeksiyasına yoluxma hallarında yenə də artım qeydə alınır. Bunun da müxtəlif səbəbləri var, onlardan ən başlıcası yumşalma tədbirlərindən sonra insanlarda arxayınlıq hissinin yaranmasıdır. Bir çox hallarda tibbi maskadan düzgün istifadə edilməməsi, sosial məsafənin gözlənilməməsi, insanların ictimai yerlərdə sıx toplanması və s. yoluxma hallarının artımında rol oynadı. Digər tərəfdən dünyada virusun mutasiyaya məruz qalmış ştammlarının yayılması, mutasiyaya uğramış virusların COVİD-19-un normal ştamından fərqli olaraq daha sürətlə yayılmaq xüsusiyyətinə malik olmasıdır. Artıq ölkəmizdə aparılan tədqiqatlar nəticəsində yeni ştammlara rast gəlindiyi məlum olub. Yoluxmalarda son zamanlardakı artım yenidən bu sahədə diqqətli olmağı tələb edir. Çünki, hazırda yenə sərt karantin rejiminin tətbiq ediləcəyi, məktəblərin, bağçaların və digər sahələrin fəaliyyətinin dayandırılacağı fikirini qarşıya qoyur, lakin qaydalara ciddi yanaşılsa, sərt karantin rejiminin tətbiqinə ehtiyac olmaz.

Dünyanın COVİD-19 pandemiyasından yeganə xilas yolu vaksinləşmədən keçir. Bəşəriyyət indiyədək bu cür çətin və mürəkkəb problemlə qarşılaşmamışdır. Tarixdə ayrı-ayrı ölkələrdə epidemiyalar mövcud olmuşdur, lakin bu epidemiyalar bütün dünyaya yayıla bilməmişdir. Çünki, o dövrdə dünya əhalisi qat-qat az idi, ölkələr arasında sıx əlaqələr və sıx gediş-gəlişlər belə deyildi. Kiçik ərazidə lokallaşmış epidemiyalar, daşıyıcılar olmadığı üçün tez sönürdü.

COVİD-19 virusunun insan bədənində “ziyansız”, yəni qorxulu olmadan yaşaması üçün dünyada bəşəri immunitet yaranmalıdır. İnsan o zaman yolxucu xəstəliyə tutulmaz ki, bu insanda həmin xəstəliyə qarşı fərdi immunitet olsun. Hər hansı bir kollektivin, məsələn, məktəb kollektivinin bütün üzvlərində immunitetin olması kollektiv immunitet, ölkədə hamının bu xəstəliyə immunitetinin olması kütləvi immunitet, dünya əhalisinin imunitet qazanması isə bəşəri immunitetdir. Hələ nə kollektiv , nə də bəşəri immunitet yaranmayıb. Bu immunitetin yaranmasının təbii və süni yolları var. Dünya əhalisinin heç olmasa 80 faizi bu virusa yoluxmalıdır ki, dünyəvi immunitet yaransın və pandemiya sönsün. Bu arzuolunmaz yoldur, burada itkilər çox olacaq, dünya əhalisinin 8 milyardından bir milyarda yaxını həyatla vidalaşmalı olacaq. Göründüyü kimi, bu təbii



yol arzuolunmazdır, çünki uzun çəkən və çox qurban tələb edən yoldur. Bəşəriyyətin hazırki pandemiyadan xilasının yeganə yolu süni immunitetin yaradılması məqsədilə vaksinasiyaya cəlb edilməsidir.

Vaksinləşmənin mahiyyəti əhalinin hamısının (ən azı 80 faizinin) peyvəndləşməsindən sonra COVİD-19 virusu insanlar üçün “təhlükəsiz” olacaq. İnsanlar arasında vaksin vurdurub-vurdurmamaq barədə tərəddüdlər ola biləcəyi üçün vaksinləşmə mütləq şəkildə məcburi olmalıdır. İndi hər şey vaksinləşmənin keyfiyyətindən və surətindən asılıdır. Vaksinləşmə nə qədər keyfiyyətli və nə qədər tez aparılsa bu xəstəlikdən bir o qədər tez xilas olmaq mümkündür. Peyvəndin vurulması və əhatəsi neçə vaxt davam etsə pandemiya da o qədər vaxt davam edəcək. Vaksinasiya etdirən şəxslərin sayının artması xəstəliyin ağır keçməsinin, ölüm hallarının qarşısının alınmasının yeganə çıxış yolu olacaq. Qeyd edək ki, vaksinləşmə prosesi ilə bağlı vəziyyət getdikcə aktivləşir. Çünki vaxtilə COVİD-19 infeksiyasının varlığını danlar olduğu kimi vaksinin təhlükəli olduğunu, peyvənd olunanlarda müxtəlif xəstəliklərin əmələ gələcəyini deyənlərdə vardır. Lakin zaman keçdikcə bəzi vətəndaşlar koronavirusun yalan olduğu düşüncələrinin əsassızlığını gördükləri kimi, ölkəmizə gətirilən vaksinin də qabaqlayıcı xüsusiyyətlərinə əmin oldular. Ona görə də vaksinasiyaya könüllü qoşulanların sayı getdikcə artır. Buna baxmayaraq, yenə də “vaksin vurduranların hamısı xəstələnir”, “vaksinlə bədəninizə xəstəlik yeridirlər” kimi absurd düşüncədə olanlar var. Bu cür düşünmək əvəzinə, insanlar ara məsafə saxlayıb maska taxmaqla gigiyena qaydalarına əməl etsələr bu qədər yoluxma olmaz . Pandemiyanın varlığına şübhə edən insanların sayı azalsa da, ətrafımızda beləsləri hələ də yox deyildir. İndi də bu cür inamsızlıq, laqeydlik vaksinlərə qarşı münasibətdə özünü göstərir. İş ondadır ki, pandemiyadan xilas olmağın, virusu zərərsizləşdirməyin ən optimal yolu bütün dünya əhalisinin effektiv vaksinlə peyvənd edilməsidir. Ölkəmizə gətirilən və rayonda əhaliyə vurulan peyvənd Çin peyvəndidir (SİNOVAK) və mütəxəssislərin fikrincə ən etibarlısıdır. Bu peyvənd inaktivləşdirilmiş, yəni öldürülmüş COVİD-19 törədicisi olan SARS-COV-2 virusunun kimyəvi və fiziki üsullarla xəstəlik törətmək qabiliyyətinin aradan qaldırılması ilə əldə edilib. Ölkəmizdə tətbiq edilən peyvəndin seçilməsində ən önəmli meyar təhlükəsiz və effektiv olmasıdır. Bu xüsusiyyətlər həmin vaksində var. Digər ölkələrdən gətirilmiş vaksinlərdən də ölkəmizdə istifadə edilir.

Əhalinin peyvəndə cəlb edilməsi mərhələlər üzrə başlanmışdır. Hazırda peyvənd 18 yaşından yuxarı olan şəxslərə 28 gün fasilə ilə iki dəfə aparılır. Birinci doza vurulduqdan sonra 28 gün tamam olduqda peyvəndin ikinci dozası müəyyən səbəbdən vurulmadığı halda 35 gün tamam olanadək vurula bilər, ondan artıq müddət keçdikdə xəstəliyə qarşı immunitet tam formalaşmır. Həmçinin yalnız bir dozanın vurulması da immunitetin əmələ gəlməsini təmin etmir. Birinci vaksinasiyadan 56 gün keçdiyi halda peyvəndləşmə yenidən başlanılır, yəni birinci və ikinci peyvənd iynələri vurulur.

Peyvəndin hər iki dozasını vurduran şəxslərin bütün qoruyucu tədbirlərdən istifadəsi vacibdir. Vaksinasiya nəticəsində yaranmış immunitet insanları, xəstəliyi ağır keçirməkdən və ölüm riskindən qoruyur. Lakin həmin şəxslərin yoluxma etimalı davam etdiyinə görə, onların əhalinin həssas və peyvənd olunmamış qruplarını yoluxdurma təhlükəsi vardır. Peyvəndin ikinci dozası vurulduqdan ən azı 20 gün sonra xəstəliyə qarşı qoruyuculuq formalaşır.

COVİD-19 əleyhinə peyvəndə tibbi əks göstərişlər çox az saydadır. İstisna meyarlarına əsasən 18 yaşından kiçiklərə, daha əvvəl hər hansı vaksin, dərman, biopreparat və ya onların tərkibinə qarşı təsdiqlənmiş ağır allergik reaksiya müşahidə edilən şəxslərə peyvənd aparılmır. Digər vasitələrə allergik reaksiya peyvəndə əks göstəriş deyil. Vaksinin dozası vurulduqda anaflaktik şok keçirənlərə, peyvənd aparılan zaman hərarəti olan şəxslərdə peyvənd aparılmır. Həmçinin kəskin respirator xəstəliklə xəstələnənlərə , COVİD-19 xəstələrilə yaxın təmasda olanlara iki həftəyədək peyvənd başlamaq məsləhət görülmür. COVİD-19 xəstəliyi rəsmi olaraq təsdiqlənmiş şəxslərə peyvənd həmin tarixdən 6 ay sonra aparılır. Hamilələr, hamilə olmaları etimal edilənlər, hamiləliyi planlaşdırılanlar və ya süd verən analara peyvənd fərdi yanaşma əsasındadır. Hamiləliyin birinci üç ayında başqa hallarda şəxsin rəsmi müraciət əsasında peyvənd aparılmasına icazə verilir. Tibbi yüksək riskli xronik xəstəlikləri ( ürək-damar, tənəffüs sistemi hemodializ, şəkərli diabet, piylənmə və s.) olanlarla kəskinləşmə dövründən başqa hallarda peyvənd əks göstəriş deyil. Əksinə həmin şəxslər birinci növbədə peyvəndə cəlb edilməlidirlər, ona görə ki, onlar COVİD-19 xəstəliyinə yoluxduqda xəstəliyi daha ağır keçirirlər və ya həyatlarını itirirlər. Hal-hazırda ölkəmizdə xəstəxanalarda müalicə alan COVİD-19 xəstələrindən iki vaksinasiya iynəsini vurduran yoxdur, 10 faiz xəstələr bir peyvənd iynəsi vurduranlardır, 90 faizi isə peyvənd aparılmayanlardır. Bununla peyvəndin iki iynəsini vurduranlarda yoluxma baş verərsə xəstəliyi yüngül keçirməklə stasionar müalicəsinə ehtiyac qalmır.

COVİD-19 peyvəndinin tətbiqi zamanı ciddi əlavə təsirlərə rast gəlinməmişdir. Peyvənddən sonra bəzən müşahidə olunan əlavə təsirlər yüngül olaraq qiymətləndirilir. Buraya yorğunluq, baş ağrısı, əzələoynaq ağrıları, peyvənd yeridilən nahiyyədə ağrı, qızartı, şişkinlik ola bilər ki, bu təsadüfü olmaqla tez bir zamanda keçib gedir. Bu əlamətlər olan şəxslərə istirahət etmək, parasetamol tərkibli dərman qəbul etmək, iynə yerində qızartı, şişkinlik olduqda soyuq kompres qoyulması məsləhətdir.

Peyvənd ilin bütün fəsillərində aparıla bilər. Əsas odur ki, vaksinlər optimal tempratur olan müsbət 2-80 dərəcədə saxlanılsın. Odur ki, vaksinlər xüsusi məqsədli soyuducularda olan temperatura termometrlə mütəmadi olaraq nəzarət olunur. Səyyar məntəqələrə isə buz qovluqları yerləşdirilmiş izotermik qutularda vaksinlər daşınır. Hazırda Qəbələ Modul tipli xəstəxanada daimi, digər kəndlərdə qrafik üzrə səyyar briqadalar əhaliyə peyvənd aparırlar.

Rayonda COVİD-19 infeksiyasına qarşı vaksinasiya uğurla davam etdirilir. 14 avqust tarixinədək 18 yaşından yuxarı rayon əhalisindən 45686 nəfər peyvəndə cəlb edilib ki, bu da 58,6 faiz təşkil edir. Əhalisi peyvəndləşmədə fəallıq edən yaşayış məntəqələri çoxluq təşkil etdiyi halda peyvəndləşmənin ümumi rayon göstəricisindən aşağı olan yaşayış məntəqələri də vardır. Rayonda əhalinin 30003 nəfəri COVİD-19 əleyhinə vaksinasiyanın ikinci mərhələsi başa çatmışdır. Hazırda vaksinasiyanın ikinci iynəsinin vurulma vaxtı tamam olmuşlardan da peyvəndə laqeydlik göstərənlər var. Bu şəxslər onu bilməlidirlər ki, hər iki mərhələ üzrə vaksinasiya olunmadıqda birinci mərhələ üzrə vurulan peyvəndləşmə effektsizdir. Odur ki, hər bir yaşayış məntəqəsində əhalinin vaksinasiyada fəal iştirakı təmin olunmalıdır. Rayonun bütün ağsaqqalarından, ziyalılarından və digər fəallarından peyvəndin əhəmiyyəti barədə izahat aparmaqla səhiyyə işçilərinə kömək etmələrini xahiş edirik.

Bu gün COVİD-19 pandemiyasından yeganə xilas yolumuz vaksinləşmək və bu proses bitənədək karantin qaydalarına ciddi əməl etməkdən ibarətdir. Bunu hər birimiz yaxınlarımızın, bütün insanlarımızın həyat və sağlamlığı üçün mütləq yerinə yetirməliyik.

**Cavanşir MƏLİKOV,**
**Qəbələ RMX-nın PHŞ-in direktor müavini.**

# Sağlamlığa gedən yol

Artıq dünyamız elə bir dövrə gəlib çıxıb ki, insanlar bir ildən artıq hökm sürən koronavirusa görə müəyyən məhdudiyyətlərlə yaşamağa məcburdur. COVİD-19 virusunun Azərbaycanda ilk dəfə tapılması ilə ölkəmizdə də digər ölkələrdəki kimi tədbirlər görülməyə başlanıldı. Görülən uğurlu tədbirlər nəticəsində ölkəmizdə tez bir zamanda artıq qoyulan qadağalarda yumşaldılmalar oldu. Və ən önəmlisi bu virusa qarşı vaksin də tapıldı. Vaksinin tapılması ilə tez bir zamanda Azərbaycan da daxil olmaqla, dünya əhalisi vaksin olunmağa başladı.

Bildiyimiz kimi, son dövrlərdə virusun yeni mutasiyaya uğramış variantı olan “Delta ştammı”nın meydana gəlməsi yenidən yoluxma sayının artmasına səbəb olub. Yoluxma sayının artması ilə yanaşı ölüm hallarıda çoxalıb. Belə olduğu halda insanlarımız daha diqqətli olmalıdır. Sərt qapanmaların təkrar olmasını heç kim istəməz.

Son günlərdə Azərbaycanda COVİD-19-a yoluxma hallarının kəskin artması ilə bağlı tədbirlər gücləndirilib. Qəbələdə də COVİD-19 pandemiyasının yayılmasının qarşısının alınması məqsədilə prospekt və küçələr xüsusi məhlulla yuyulur, həmçinin yaşayış binaları və həyətlərində, mağazalarda, aptekləri giriş-çıxışlarında, digər iaşə obyektlərində sanitar-dezinfeksiya işləri aparılır, əhali arasında vaksinlərin vurulması və pandemiya ilə bağlı qərarlara əməl olunması yönündə maarifləndirici söhbətlər aparılır.

Bildiyimiz kimi, ölkə əhalisinin sağlamlığının qorunması və vaksinasiya prosesinin sürətləndirilməsi ilə bağlı Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən müəyyən qərarlar qəbul edilib. Belə ki, “COVİD-19” pasportu olmayan şəxslərə bəzi yerlərə girişçıxış qadağan olunacaq.

Ali və orta-ixtisas təhsili müəssisələrində təhsil alan yaşı 18-dən yuxarı olan şəxslər əyani dərslərə yalnız “COVİD-19” pasportuna malik olduqları halda buraxılacaqlar. Əlavə olaraq, yaşı 18-dən yuxarı olan şəxslər ictimai iaşə müəssisələrinin, mehmanxanaların və iri ticarət mərkəzlərinin qapalı məkanlarında göstərilən xidmətlərindən yalnız “COVİD-19” pasportu olduğu halda istifadə edə biləcəklər.

Qəbələ rayon İcra Hakimiyyətində də koronavirus infeksiyasının yayılmasının qarşısının alınması və əhalinin vaksinasiya olunmasının sürətləndirilməsi məqsədilə onlayn müşavirə keçirilib. Rayon icra hakimiyyətinin , hüquq-mühafizə orqanlarının, rayonda fəaliyyət göstərən idarə, müəssisə və təşkilat rəhbərlərinin, eləcə də, inzibati ərazi dairələri üzrə nümayəndələr və bələdiyyə sədrlərinin iştirak etdiyi müşavirədə rayonda aparılan vaksinasiya prosesi müzakirə edilib. Rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev rayon ərazisində koronavirus infeksiyasının yayılmasının qarşısının alınması və əhalinin vaksinasiya olunmasının sürətləndirilməsi barədə tövsiyə və tapşırıqları verib.

Bildiyimiz kimi, ölkəmizdə vaksinasiya prosesinə yanvar ayının 18-dən etibarən başlanılıb. Lakin buna baxmayaraq, hələ də bu günə kimi vaksin olunmaqdan çəkinən insanlarımız var. Amma biz bilməliyik ki, bu virusun tezliklə yox olması üçün vaksinasiya prosesində iştirak etmək mütləqdir. Hər kəs xəstəliyin bitməsini arzulayır. Unutmayaq ki, pandemiyaya qalib gəlməyimizin yeganə yolu vaksinasiyadır.

**İlahə RƏHİMOVA,**
**“Qəbələ”**